***Ramil ƏLİYEV***
***Filologiya elmləri doktoru, professor***
***AMEA Folklor İnstitutu***
***E-mail: ramill.aliyev@gmail.com***
*https://doi.org/10.59849/2309-7949.2023.1.14*

# "DUXA QOCA OĞLU DƏLİ DOMRUL BOYU"NDA MİFOLOJİ ZAMAN (AYLANU KONSEPTİ VƏ YUMUŞCU OĞLAN)

**Açar sözlər**: Dəli Domrul, Aldacı, Əzrayıl, Allah, Aylanu, Toğrul quşu, matriarxatlıq

**SUMMARY**
**Ramil ALIEV**
**MYTHOLOGICAL TIME IN THE "SONG DUKHA GOJA OGLU DELI DOMRUL" (THE CONCEPT OF AİLANU AND THE YUMUSHCHU BOY)**

The "Epic of Deli Domrul" differs from other dastans in its mythological features. This dastan reflects the most ancient mythological worldview. Its story even embodies the Upper Paleolithic totem and the ongon thought. "The Epic of Deli Domrul" tells about the mythological worldview of our ancient ancestors during the Upper Paleolithic. İn the structure of the dastan, we see that the motives of life instead of life, as a result of the ideas of ourancient ancestors about life and death, the irrational thought of yumushchu oglan is reflected in the generic worldview. Observing nature, they see how night succeeds day, sunset, moonrise at night and disappearance during the day. The idea that the dragon swallows the moon and the sun turns into a myth, and in the matriarchal period the sun and the moon are presented as a girl. Why is it customary in the mythological consciousness to sacrifice girls?

Because in matriarchy, it is advisable to sacrifice a girl, because she is pure. In particular, the girl sacrificed to the Dragon for the resurrection of the Moon plays the role of a goddess in subsequent performances, performing the function of a motive for giving life instead of life. In Altai-Turkic mythology, this motive is called Ailanu. We do not find such a name in other motives. This proves that the motive for Ailanu is a very ancient motive at the world outlook level. So, Ailanu, as an ancient motive, went through many stages of worldview. The earliest stage of the formation stage of Ailanu can be associated with the period when he was a goddess. In world mythology, there is a lot of information about the gods who sacrificed their lives. But none of them undergo the ritual of resurrection and sacrifice in connection with the moon. Only in the Sumerian myth the gods created by Gestinanna and Enki for sacrifices correspond to the mythological concept of the Moon. In Turkic mythology, the motive to give one's life instead of the life of others takes a special form, therefore this sacrifice is called Ailanu. It is for these reasons that the image of Ailanu as a dead and resurrected goddess enters into epic thinking, especially during the formation of the Epic of Deli Domrul in "Kitabi-Dada Korkut".

İn the patriarchal period, the presentation of the Moon as a man gave birth to the belief that Deli Domrul leads himself as a yumushchu boy. Saga shows how long he was a

yumushchu boy. A new mythological worldview is taken into account at the expense of the soul of the deceased hero Azrail (in the lower worldview - Aldaji). But this event takes place in the heat of the saga. Below the name of the living angel is represented as Aldaji, as in Altai-Turkic mythology. It seems to us that the Deli Domrul war with Azrael was based on his fight with Aldaji. Instead, Deli Domrul, who lost to Aldaji, should die. During the transition from the mythological consciousness to the epic in the saga is also used the motive of choice in the sacrifice of the dead resurrected goddess Ailanu. But the name of Ailanu in the saga is not mentioned. The reason may be several. Either the Circle is considered very sacred, and Deli Domrul's wife was not named in her honor, or the name of the lady was named in her honor in the old versions of the saga, and in the later versions it was called her. Not only that, the motive of sacrifice, dressed with the motive of life instead of life, played a special role in the fact that the wife of Deli Domrul gave her life to her husband. This does not correspond to Islamic thought, so they are usually forgiven and given 140 years of life.

**Keywords:** Deli Domrul, Aldaji, Azrayil, Allah, Ailanu, Togrul bird, matriarchy

**РЕЗЮМЕ**

**МИФОЛОГИЧЕСКОЕ ВРЕМЯ В "ДУХА ГОДЖА ОГЛУ ДЕЛИ ДОМРУЛ ПЕСНИ" (КОНЦЕПЦИЯ АЙЛАНУ И ЮМУШЧУ ОГЛАН)**

"Песни Дели Домрула" отличается от других песен по мифологическим характеристиками. Эта песня отражает древнейшее мифологическое мировоззрение. Даже исторический верхнепалеолитический период тотемной и онгонной мысли живет в ее структуре. "Дели Домрул" рассказывает о мифологическом мировоззрении наших древних предков в эпоху верхнего палеолита. В структуре песни отражены представления наших древних предков о жизни и смерти, мире, мотив жизни вместо жизни, иррациональное мышление о “йумушчу оглан”е в племенном мировоззрении. Наблюдая за природой, наши предки видят, что день превращается в ночь, солнце садится, ночью всходит луна, а день исчезает. Изображение дракона, пожирающего луну и солнце, становится мифом, а в матриархальные времена солнце и луна представляются дочерьми. Почему в мифологическом сознании принято жертвоприношение девушек? Потому что при матриархате девушку можно принести в жертву только потому, что она невиновна. В этом смысле девушка, которую приносили в жертву Солнцу и Луне, была важнее мужчины в принятии этой жертвы. Поэтому воскресение Солнца и Луны, ярко представленное в мифологическом сознании, понимается как их воскресение. В частности, девушка, приносимая в жертву Дракону для воскрешения Луны, играет роль богини в реализации функции мотива души вместо души в более поздних изображениях. Этот мотив упоминается как Айлану в алтае-тюркской мифологии. В других мотивах мы не видим такой традиции. Это доказывает, что мотив Айлану очень древний мотив на мировоззренческом уровне. Это значит, что Луна, как древний мотив, проходит через множество уровней мировоззрения. Самый ранний этап формирования Айлану может быть связан с периодом, когда она была богиней. В мировой мифологии есть много рассказов о богах, жертвующих своими жизнями. Но никто из них не проходит через ритуал воскрешения и жертвоприношения, связанный с Луной. Только в шумерской мифологии Гестинанна и Энки, боги, созданные для жертвоприношения, соответствуют мифологическому представлению о Луне. В тюркской мифологии особая форма мотива души вместо души означает, что жертва вспоминается как Айлану. Образ умершей и воскресшей богини Айлану играет роль в формировании характера Дели Домрул, особенно в «Китаби-Деда Горгуд», и входит в идею эпоса. В патриархальный период идея о том, что Луна была мужчиной, заставляла Дели Домрула восприниматься как «йумушчу оглан». Песня показывает, как долго длится функция «йумушчу оглан».

Восстановив душу умирающего героя Азраилом (с Алдаджи в подмировоззрении), принимается новое мифологическое мировоззрение. Но это событие происходит в верхнем слое шеи. Имя ангела, живущего в нижнем слое песни,

представлено как Алдаджи, как и в алтае-тюркской мифологии. Нам кажется, что битва Дели Домрула с Азраилом основана на его битве с Алдаджи. Дели Домрул, побежденный Алдаджи, должен умереть вместо кого-то другого. При переходе от мифологического сознания к эпическому в мифологии используется и мотив выбора богини Айлану в качестве жертвы. Однако имя Айлану не упоминается. На это есть несколько причин. Либо Айлану считается очень святым, поэтому жена Дели Домрула не названа в его честь, либо шея упоминалась под его именем в старых версиях, но позже исчезла. Однако мотив жертвоприношения играл особую роль вместе с мотивом жены Дели Домрула, отдающей жизнь вместо жизни. Поскольку это не соответствует исламскому мышлению, оба прощаются и получают по 140 лет жизни.

**Ключевые слова**: Дели Домрул, Алдаджи, Азраил, Бог, Айлану, птица Тогрул, матриархат

Dəli Domrul boyu öz mifoloji xüsusiyyətlərinə görə başqa boylardan fərqlənir. Bu boy ən qədim mifoloji dünyagörüşü əks etdirir. Onun tarixi hətta Üst Paleolit dövrünə məxsus totem və onqon düşüncəsini öz strukturunda yaşadır. Dəli Domrul boyu qədim əcdadlarımızın Üst Paleolit dövründə hansı mifoloji dünyagörüşə malik olduğundan xəbər verir. Boyun strukturunda qədim əcdadlarımızın həyat və ölüm, o dünya haqqında təsəvvürlərinin nəticəsi kimi qurbanvermə motivinin və can əvəzinə can istəmə, can əvəzinə can vermə motivlərinin, yumuşcu oğlan haqqında irrasional düşüncənin qəbilə dünyagörüşündə öz əksini tapmasını görürük. Bu motivlər matriarxatlıq dövrünün şüuru ilə bağlıdır. Onlar təbiəti müşahidə etdikcə gecənin gündüzü əvəz etməsini, Günəşin batıb çıxmasını, Ayın gecə çıxıb, gündüz yox olmasını gördükcə bu proseslərə mifoloji don geyindirir, onların təhtəlşüurunda Günəşi, Ayı udan qüvvənin şər xislətli olması, əjdaha kimi təsəvvür edilməsi əks olunur. Əjdahanın Ayı, Günəşi udması haqqındakı bu təsəvvürlər miflərə çevrilir, matriarxat dövründə Günəşin, Ayın qız kimi təsəvvür olunması baş verir. Günəşin, Ayın şər qüvvənin əlindən xilas edilməsi üçün onlara qurban verilməsi ritualı gerçəkləşdirilir. Mifoloji şüurda niyə qızların qurban verilməsi qəbul olunur? Çünki matriarxatlıqda qız pak olduğu üçün qurban verilməsi məqsədəuyğundur. Bu mənada Günəş və Aya qurban verilən qız bu qurbanın qəbul olunmasında kişidən daha çox əhəmiyyət daşımışdır. Buna görə də canlı təsəvvür olunan Günəşin və Ayın canı əvəzinə can verilməsi mifoloji şüurda onların dirilməsi kimi başa düşülür. Xüsusilə Ayın dirilməsi üçün Əjdahaya qurban verilən qız can əvəzinə can motivinin funksiyasının həyata keçirilməsindən sonrakı təsəvvürlərdə ilahə kimi canlandırılır. Bu motiv Altay-türk mifologiyasında Aylanı adı ilə işarə olunur. Bu cür ad verməyə başqa motivlərdə rast gəlmirik. Bu da Aylanu motivinin dünyagörüşü səviyyəsində çox qədim olmasını sübut edir. Deməli, Aylanı qədim motiv kimi bir çox dünyagörüşü səviyyələrindən keçmişdir. Aylanunun formalaşmasının ən qədim

mərhələsi onun ilahə olması dövrü ilə bağlı ola bilər. Dünya mifologiyalarında canını qurban verən ilahələr haqqında çoxlu məlumatlar vardır. Amma onların heç biri Ayla bağlı ölüb-dirilmə və qurbanvermə ritualından keçmir. Təkcə Şumer mifində Geştinanna və Enkinin qurbanlıq üçün yaratdığı məbudlar Ayla bağlı mifoloji düşüncəyə uyğun gəlir. Türk mifologiyasında can əvəzinə can motivinin xüsusi şəkil alması həmin qurbanın sonradan Aylanu adlandırılmasını şərtləndirir. Məhz bu kimi səbəblərdən sonra Aylanunun ölən və dirilən ilahə kimi obrazı epik düşüncəyə daxil olur, xüsusilə "Kitabi-Dədə Qorqud"dakı Dəli Domrul boyunun formalaşmasında rol oynayır.

Patriarxat dövründə isə Ayın kişi cinsində təsəvvür olunması ilə Dəli Domrulun yumuşcu oğlan kimi fəaliyyətinə inanc yaranır (Dəli Domrulun matriarxat dövründə Aya bağlılığı. Urfa bölgəsində Sinlə (Ay tanrısı) bağlı tapınaqlar EHULHUL adı ilə tanınır (Demirçi. 2005: 111-123) və Aylanu matriarxatlıqdakı ölüb-dirilən ilahə funksiyasını dəyişərək, Dəli Domrulun xatununa çevrilir. Onun yumuşcu oğlan funksiyasının nə qədər davam etməsi boyda göstərilir. Ölən igidin canının Əzrayıl (alt dünyagörüşdə Aldacı) tərəfindən alınması ilə yeni mifoloji dünyagörüş qəbul olunur. Amma bu hadisə boyun üst qatında baş verir. Boyun alt qatında isə can alan mələyin adı Altay-türk mifologiyasında olduğu kimi, Aldacı adı ilə təqdim olunur. Bizə belə gəlir ki, Dəli Domrulun Əzrayılla savaşının da əsasında onun Aldacı ilə mübarizəsi dayanır. Aldacıya məğlub olan Dəli Domrulun canı əvəzinə can tələb edilir. Mif şüurundan epos şüuruna keçiddə mifologiyada ölüb-dirilən ilahənin – Aylanunun qurban kimi seçilməsi motivindən boyda da istifadə olunur. Amma Aylanu adı boyda xatırlanmır. Burada bir neçə səbəb ola bilər. Ya Aylanu çox müqəddəs hesab edildiyindən Dəli Domrulun xatunu onun adı ilə adlandırılmır, ya da xatunun adı boyun əski variantlarında onun adı ilə adlanmış, yeni variantlarda isə yeni dini şüur onun adının üstündən xətt çəkmiş, sonradan patriarxatlıq zamanında Domrulun təsiri ilə unudulmuşdur. Buna baxmayaraq, qurbanvermə motivi can əvəzinə can motivi ilə birlikdə Dəli Domrulun xatununun öz həyatını ərinə bağışlamasında xüsusi rol oynamışdır. Bu isə İslam düşüncəsinə uyğun gəlmir, ona görə də onların hər ikisinin canı bağışlanılır və 140 il ömür verilir.

"Duxa Qoca oğlu Dəli Domrul boyu" "Kitabi-Dədə Qorqud" boylarının içərisində ən qədim boylardan biridir. Boyun qədimliyini göstərən bir neçə motiv və süjet xətti vardır. Dəli Domrulun Əzrayılla savaşı, Dəli Domrulun ata-anasından və xatunundan öz canı əvəzinə can istəməsi, Dəli Domrulun ölüm mələyi kimi boyun süjet xəttindən bərpa olunması, xatununun can əvəzinə can verməsi ilə bağlı motivin və xatununun adının bərpa olunması,

xatunun ölüb-dirilən ilahə adının izlənilməsi, can əvəzinə can və ölüb-dirilmə motiflərinin bir obrazda təcəssüm olunması, Dəli Domrulun qəbilənin ölüm mələyi kimi funksiyası, qədim türk mifologiyasında ölüm mələyi kimi adı keçən Aldacı ilə həmin ölüm mələyinin – Dəli Domrulun savaşı fonunda Dəli Domrul və Əzrayıl münasibətləri, matriarxat dövründən patriarxat dövrünə keçiddə Dəli Domrul və can əvəzinə can motivinə yaxın motivlər, Əzrayılın özünü yumuşcu oğlan adlandırmasının ona deyil, Dəli Domrula və Aldacıya aid olması, Dəli Domrulun ölüm mələyi funksiyası və s. məsələlər bu boyun alt qatında özünəməxsus şəkildə yer alır.

Boyda Dəli Domrulun Əzrayılla görüşünü iki hissəyə ayırmaq olar: Dəli Domrulun Əzrayılla savaşı və Dəli Domrulun can əvəzinə can axtarması. Birinci hissədə Dəli Domrul öz keçmiş statusuna – ölüm mələyi olmasına güvənir. Zənnimcə, boydakı "yumuşcu oğlan" sözü təkcə Aldacıya şamil olunmamalıdır. Katib Dəli Domrulun ölüm mələyi olmasını islam düşüncəsinə zidd qəbul etdiyindən bu funksiyanı Əzrayıla aid etmişdir. Amma Əzrayıl türk mifoloji düşüncəsinin Qurana zidd bu adını dini məntiqə görə daşıya bilməz. Mif məntiqinə görə Aldacı ilə vuruşan Dəli Domrul da yumuşcu oğlandır. Bu cəhətdən Seyfəddin Rzasoyun Dəli Domrulu "yumuşcu" funksiyasının paradiqması" hesab etməsi özünü doğruldur (Rzasoy. 2004: 7). Bu hissədə Dəli Domrul Əzrayılla iki dəfə üz-üzə gəlir. Başa düşür ki, can alan, can verən Allahdır. Məhz bundan sonra Allahı tanıyır. Əzrayıla nida gəlir ki, Haqqın birliyini tanıdığına görə can əvəzinə can bulsun, onun canı azad olsun (Kitabi-Dədə Qorqud. 1978: 90). Halbuki ölüm mütləqdir və heç kəsin can əvəzinə can axtarmaq ixtiyarı yoxdur. Can əvəzinə can axtarmaq qədim düşüncə olduğundan bu, türk mifologiyasında tanrılara verilən ixtiyardır.

Yumuşcu sözü itaətkar deməkdir. Əzrayıl da itaətkar xidmətçi kimi Allahın əmrini yerinə yetirir. Boyun bu hissəsinə qədər Dəli Domrulun yumuşcu və ya ölüm mələyi olması barədə heç nə deyilmir. Bu funksiyanı oxşar mətnlərdəki situasiyalara uyğun olaraq bərpa edə bilərik. Dəli Domrulun dilindən söylənən "Mərə, Əzrail dediyin nə kişidir kim, adamın canını alır? Ya qadir Allah, birliyin, varlığın həqqiçün Əzraili mənim gözümə göstərgil! Savaşım, çəkişim, dirəşim, yaxşı igidin canını qurtarayım" cümləsi onun hələ də ölüm mələyi olmasına iddialı olduğunu göstərir.

Şumer mifologiyasında İnannanı yeraltı dünyanın tanrısı Enki xilas edir. O, gildən iki eybəcər məxluq düzəldir, onları yeraltı dünyaya göndərir, onlar orada İnannanı dirildirlər (Şıxıyeva. 2011: 249). Annunaklar onun dirildilməsinə etiraz edirlər, İnannanın qohumlarından can əvəzinə can istəyirlər. İnanna ölümün baxışını Dumuziyə (əjdaha-quş ipostazında əjdaha

güclü onqondur. Dumuzinin anası “ama-uşumqal”, yəni anası əjdaha olduğu üçün Şumerdə matriarxatlıq dövründə Dumuzinin atasının adı çəkilmir, patriarxatlıq dövründə isə Dəli Domrulun onqon anasının adı xatırlanmır. Akademik Tofiq Hacıyev onun da anasının əjdaha olduğunu qəbul edir) yönəldir, Dumuzi ölür, onu şeytanlara verirlər (Şıxıyeva. 2011: 250). Bitki tanrısı Geştinanna qardaşı Dumuzinin əvəzinə ölməyə razı olur (Şıxıyeva. 2011: 250).

Yunan mifologiyasında da Dəli Domrulun adı ilə bağlı olan can əvəzinə can motivinin izlərini görmək olar. Əcəl vaxtı çatdığında Admet ölməlidir. Amma Admet öz canı əvəzinə can tapa bilsə, Əcəl onun canını almayacaq və Dəli Domrul boyunda olduğu kimi, onun ata-anası da oğullarının əvəzinə ölmək istəmirlər, zövcəsi Alkesta öz canını onun əvəzinə verməyi qəbul edir. Yeraltı dünyanın tanrısı Hadesin zövcəsi Persefona bu bağlılıq qarşısında yumşalır, Alkestanı ərinə qaytarır (Muharrem. 2004/1. X. Sayı: XXXVII, 237).

“Ər-Töştük” dastanında da Jesmen Bay onu öldürmək istəyən Kafir oğlu Yel Moğusa (Zel Moğus) öz canı əvəzinə oğlu Ər-Töştükün canını təklif edir. İkinci gəlin (dastanda Ər-Töştükün iki xatununun – Kül ayim və Biyti-künqün adı çəkilir) Ər-Töştükün canı əvəzinə Yel Moğusa öz canını vermək istəyir. Yel Moğus onların ikisinin də canını azad edir. Altaylıların Ay Manqus mifində o, kasıblığın daşını atmaq üçün macəralara əl atır. O, Altun Erkəklə savaşmağa başlayır, lakin gücü ona çatmayanda, Altun Erkək onu öldürmək istəyəndə Çek Pergen öz canını təklif edir və ölür. Daha sonra bu çarpışmalarda iki çalğıçı Ay Manqusun yerinə öz canlarını təklif edirlər, onların oxuduğu nəğmələrin təsiri ilə Altun Erkəyin özü və atı daşa dönür, onlar da xilas olurlar. Burada da Ər-Töştüklə Dəli Domrul arasında müqayisələr aparmaq mümkündür. Ər-Töştük yenilməz bir bahadırdır. Dəli Domruldan fərqli olaraq, ölüm mələyi deyil, atasının canı əvəzinə qurban kimi seçilmişdir. Həm Dəli Domrulun xatunu, həm də Ər-Töştükün xatunu onun əvəzinə ölməyi qəbul edirlər. “Ər-Töştük” dastanında Yel Moğus şər qüvvədir, buna baxmayaraq, gənclərin bir-birinə sevgisi qarşısında yumşalır və Ər-Töştükün canını azad edir. Amma “Dəli Domrul boyu”ndakı oxşar süjetdə Yel Moğusa oxşar ad silinmiş və şər qüvvənin adı xeyirxah Allah-təala ilə əvəz olunmuşdur.

Türk mifologiyasında Aylanu motivinin 3 inkişaf dövrü keçdiyini görmək olar. Aylanu adının qədim türk xalqlarının epik düşüncəsinin məhsulu və adı, yoxsa “Kitabi – Dədə Qorqud”dakı Dəli Domrulun xatununun adı olaraq qəbul etmək lazımdır? Bu məsələnin cavabını izah etmək ölüb-dirilmə

motivinin mifdə, yoxsa dini şüurda ilkin olmasını öyrənmək qədər çətindir. Bu məsələnin cavabı çoxlu şərh tələb edir.

Əgər etnik düşüncəni birinci qəbul etsək, Aylanunu ölüb-dirilmə ilahəsinin və can əvəzinə can motivinin adı olaraq qəbul etməliyik. Hərəkətin məzmunu adın məzmununa uyğun gəldiyi kimi, düşüncənin də yaratdığı dünyagörüşü onun modelinə uyğun olmalıdır. Deməli, model düşüncənin ifadə olunduğu formadır, düşüncə isə onu konkret adla ifadə edir. Motiv də düşüncənin yaratdığı modeldir, onun adlandırılması isə şüurun vəzifəsidir. Qurbanvermə motivini də şüur yaradır. Onun tətbiq olunduğu yeri – ritualı da insan şüuru həyata keçirir. Qurban verilən insandırsa, bu hərəkət toplumun qarşısında icra olunmalıdır ki, onun mahiyyəti başa düşülsün. Yəni qurbanvermənin bir neçə məzmunu ola bilər. Onlardan biri də can əvəzinə tələb olunan canın qurban verilməsidir. Bunu həm fiziki halda başa düşmək olar, həm də psixoloji toplum düşüncəsinin qəbul etdiyi forma kimi anlamaq olar. Çox zaman ikincisi (forma) birinci halı stimullaşdırır. Bu isə insanın insana bağlılıq vəziyyətindən asılıdır. Bu bağlılığı Dəli Domrulun xatununda da görürük. Dəli Domrulun xatunu ölümü affekt halında qəbul edir. O, ərinə bağlı olmasaydı, affekt halında olmayacaqdı. Ümumiyyətlə, bütün qurban verilənlər affekt halını almasalar, bu akta inancları olmasa, ritual baş verə bilməz. Eyni zamanda qurbanvermə Dəli Domrulun xatununun (Aylanının) funksiyasıdır. Deməli, onun bu hərəkəti təkcə affekt nəticəsində deyil, həm də gözlənilən funksiyadır. Qurbanvermə, qəbilə adamının kosmik şüurunda can əvəzinə canın və ya canların yeni həyata dönməsinin təmin edilməsi deməkdir. Qəbilə şüurunda can insanın fiziki materiyasından kənarda düşünüldüyünə görə toplumun günahlarının bağışlanması və yaşamasının təmin olunması üçün qurbanvermə ritualı vacib proses sayılmışdır. Boyda isə tək bir adamın günahı, Allahı tanımaması ucbatından bu ritualın həyata keçirilməsinə zəmin yaradılmalıdır. Can bədəndən ayrı düşünülməsəydi, qurbanvermə bir şəxsə aid olacaqdı. Burada isə can bədəndən kənarda düşünüldüyünə görə bütün qəbilənin günahının bağışlanması üçün qurbanvermə də ümumi xarakter daşıyır.

Boyda da günaha görə qəbilə və Oğuz kosmoqoniyası arasındakı ziddiyyəti (dəyişmiş totem dünyagörüşü ilə bağlı olan ziddiyyət. Əjdaha-quş ipostazında Dəli Domrulun yaradıcısı tulu quş və əjdahadır. Qurd toteminə keçiddə əjdaha inanclı Dəli Domrul qurban verilməlidir) aradan qaldırmaq üçün qurban tələb olunur. Ya günahkar, ya da onun ən yaxını qurban verilməlidir. Ümumiyyətlə, qurbanvermə qəbilə şüurunun affekt halı kimi diqqəti cəlb edir.

Qurban verilənin qəbul olunmasında qan həlledici rol oynayır. Qurbanın qəbul olunması üçün onun qanı axmalıdır. Axan qan isə qədim insanlarda ölüb-dirilmə düşüncəsini yaradır, yəni qurban verilən şəxs kosmik məkanda dirilib yaşayır. Bu deyilənlərə uyğun olaraq, Dəli Domrulu mifoloji qəhrəman və ya yumuşcu oğlan kimi qəbul etsək, onda yumuşcunun xatununun can əvəzinə can motivini səciyyələndirən adının da ilahə Aylanu olduğunu görməliyik. Dəli Domrul adının da keçdiyi tarixi-mifoloji mərhələni izlədikcə ona və xatununa fikrimizi daha dəqiq ifadə edə biləcəyik.

Zənnimizcə, mifoloji düşüncənin məhsulu olaraq, Aylanu Dəli Domrulun funksiyasına əks olan ölüb-dirilmə ilahəsinin və can əvəzinə can vermə motivinin adı kimi ilkin qəbul olunmalıdır. Epik təfəkkürün məhsulu kimi isə oxşar mənbələrə əsasən Dəli Domrulun xatununun adının da ilahə Aylanu olduğunu fərz edə bilərik. Aylanu adının Ay ilə bağlılığı, Ayın can əvəzinə can verilməklə xilas edilməsi (əjdaha tərəfindən udulmaması üçün Aya at qurban kəsilməsi ritualı keçirilir) qədim mifoloji şüurun məhsuludur. Öləng adının da Aylanu ilə əlaqəsi olduğunu düşünmək olar. Öləng təbiət kultu ilə bağlı olan su və yaşıllıq ilahəsi kimi Göy Tanrının xatunudur, həm də qadın kultudur. Qədim toylarda oğlan və qızlar arasında gəlinin vəsfi ilə bağlı oxunan nəğmələr də Öləng nəğmələri adlanır (İzahlı saz-söz lüğəti, 2015: 81). Xızırın unutdurduğu Öləng həm də bitki (üzərrik) adıdır, ailə qoruyucusudur, ölüb-dirilmə ilə bağlıdır, həkimlərin hamisidir. Buradan Aylanunun da Öləng kimi ilahə olmasını fərz edə bilərik.

Mifoloji düşüncədə Ayın əjdaha tərəfindən udulmaması üçün ona da qurban vermək lazımdır. Sonrakı mifoloji təfəkkürdə əjdaha şər qüvvə hesab olunduğu üçün bəzi türk xalqlarında ona dovşan və ya at kəsib qanını göyə atırdılar. “Məlikməmməd” nağılında da əjdahaya qurban verilən qızı xilas etmək üçün Məlikməmməd özünü irəli verir. Burada əjdahanın qurbanı qızdır. Qurban verilən qız əjdahanın qəddarlığını nəzərə almadan öz təfəkküründə formalaşan toteminin obrazına vurulur, ona qarşı simpatiya yaranır, qeyri-şüuri olaraq məhəbbətin gücü ilə özünü qurban verir.

Mifoloji təfəkkürdə də Aylanu Ayı Əjdahanın ağzından xilas etmək üçün can əvəzinə can motivini özü icra edir. Aylanu və Aydahar (əjdaha – qazax mifologiyasında) sözlərində Ay hissəciyi Ay tanrıya, onların arasındakı birtərəfli mübarizəyə işarədir (əjdahanın əjdahaya qarşı mübarizəsi motivi də “Məlikməmməd” (Bükə Məmməd) nağılının gizli qatındadır, hələ araşdırılmamışdır, “Məlikməmməd” nağılının gizli qatındakı əjdaha-Məlikməmməd mübarizəsinə bağlı olan qədim mifoloji düşüncədə də canlı təsəvvür olunan Ayın dirilməsi üçün can əvəzinə Aylanunun canı əjdahaya

qurban verilir – eposda Dəli Domrula). Ay Ata Altay tenqriçilik inancında Ay tanrısıdır (Karakurt. 2012: 125). Aylanu xeyirxah əjdahanın qıza reinkarnasiyasıdır. Ayla halə deməkdir, Aylanu – dolu ay mənasındadır. Aydan adında da dolu ay mənası vardır. Aylanu da Aydan adının y/d əvəzlənməsi yolu ilə düzələn ad təsiri bağışlayır. Yəni Ay üzlü qız. Burada Ay sözü özəllik deyil, üz, sifət mənasındadır, gözəlliyi simvolizə edir, onun yaratmaq, işıq mənası da vardır, yaradıcı tanrıların adının qarşısına əlavə edilir, məsələn, Ürünq Ay Toyon, Ay Ata, Ayııhı, Ay xan (Ayığ xan). Aylanu isə canını kişi cinsində təsəvvür olunan sevdiyi Aya qurban verməyə hazır olan varlıqdır, “Div Ay nənəni tutub” deyimində də əjdahanın Ay Ananı udması düşüncəsi yaşayır (Bəydili. 2003: 76). Qurumsaq sözündə də “qurum” qurbanlıq mənasında, qurumsaq qurban törəni mənasındadır. “Kitabi-Dədə Qorqud”da oğuzların özlərinə qırım seçməsi də qurban mənasına yaxın gəlir. Kur sözü də qurbana işarədir (kurqan), atın quyruğunun kəsilməsi, ölən igidin məzarına atın qurban kəsilib qoyulması da bu məna ilə bağlıdır (Bəydili, C., 2003: 354). Can əvəzinə can vermə motivi qurbanvermə motivi ilə də bağlıdır. Qurumsaq sözündə də qur sözü canlı qurban mənasında Aylanunun ölüm mələyinə qurban verilməsi kimi anlaşıla bilər. Ölüm mələyinə verilən qurban canlı adam və ya ilahə olduğundan Aylanunun da canlı olduğunu, qurban verilən qız olduğunu düşünürük. Aylanu adının apelyativində can əvəzinə can, həm də qurban verilən qız mənaları gizlənir.

Aylanu düşüncəsi matriarxatlıq dövrünün məhsuludur. Belə düşünmək olar ki, Aylanu şəxsləndirilmiş obrazdır. Tarixi dilçilik baxımından da Aylanu adının qrammatik izahı maraq doğurur. A.Vamberi arslan sözünü “arıs (güclü)+lan (vəhşi heyvan) kimi izah edir. A.Tietze və türkiyəli Sevan Nişanyan da bu sözü ars (boz, qəhvəyi)+lan (vəhşi heyvan) kimi izah etmişlər. Yılan/ilan sözündə də -lan hissəciyi heyvan və ya quş (ilan-quş) mənasındadır. Onun Çin dilində Lung/Loon/yılan kimi işlənildiyini, xalq diliində isə yılan, ilan şəklinə düşdüyü haqda məlumat verilir (Eyvazov. 2019: 152). Mulan sözündə də *-lan* heyvan mənasında əjdahaya işarədir (loon). “Mulan nəğməsi”ndə Mulana sadiq olan Muşunun hərəkətlərində can əvəsinə can motivinin izləri vardır. Belə ki, Mulan nə qədər Muşunu özündən ayırsa da, lakin onun çətin vaxtlarında Muşu yenidən peyda olur, ona məsləhətlər verir. Mulan adının kökündə *-lan* hissəciyi də əjdaha mənasındadır və əjdaha mənşəli Mulan deməkdir.

Bir sözlə, Aylanu can əvəzinə can motivinin adı olmaqla bərabər, həm də ölüb-dirilmə motivi ilə də bağlıdır. Ölüb-dirilmə tanrılara, ilahələrə xas

xüsusiyyətdir. Tanrılara qızlar qurban verilir. Aylanu da tanrıya (burada Ay tanrıya) qurban verilir.

Nağıllarımızda ilana (ilan-qadına) evlənən kişilər çox zaman həyat yoldaşlarının ilan mənşəli olduğunu bilmirlər. Müdrik insanlar onlara bu barədə söylədikdən sonra arvadlarını öldürmək barədə düşünürlər. "İlan və qız" nağılında da ər evləndiyi qadının ilan mənşəli olduğunu biləndən sonra dərvişin məsləhəti ilə onu təndirdə yandırır (Azərbaycan nağılları. 2005: 233). Süjetin əsasında yenə də ilan (əjdaha) motivi dayanır. Əjdahanın sadiqliyini göstərən əjdaha motivində isə onun öz nəslinə münasibəti xeyirxahlıqla, pozitiv enerji ilə ölçülür. Belə düşünmək olar ki, Aylanu sözündəki Ay (Ay tanrısı)+lan (əjdaha totemi) əjdaha-quş modelində təsəvvür olunan qədim Türk ilahəsi, can əvəzinə can motivinin antropomorflaşmış ölüb-dirilən məbududur.

"İlan və qız" nağılı özünü qurban verən ilanın, əjdahanın (Aylanunun) dəyişilmiş variantıdır. Bu nağılda ilana, əjdahaya olan nifrətin səbəbindən özünü qurbanvermə itmiş, ilana ərə getmə motivi ilə əvəz edilmişdir. Belə ki, nağılda Məhəmməd kol-kos kəsdiyi yerdə bir ilanla qarşılaşır. İlan ondan qızlarından birini istəyir. Nağılda ilan və ilan-qadından doğulan 3 qız təsvir olunur. Dərvişin yandırdığı ilanı tapmaq üçün kiçik bacı sevgisi yolunda özünü qurban verir. İlan haqqındakı təsəvvürlərdə onun 1200 il yaşadıqdan sonra qıza çevrilməsi inamı vardır. Gəncədən toplanmış "Qız və ilan" nağılında da ilan 1200 il yaşadıqdan sonra qıza çevrilir. Belə düşünmək olar ki, Dəli Domrulun xatunu da həmin qaydada qıza çevrilmiş ilan-əjdahadır. Aylanu da əjdahaya qurban verilən ilahədir.

Dəli Domrul adında da quş-əjdaha məzmununun olması Aylanu ilə Domrul arasındakı yaxınlığı göstərir. Domrulla Dumuzi arasında da genetik bağlılıq vardır. Belə ki, bacısı Geştinanna da Dumuzinin yenidən həyata qayıtmasında rol oynayır. Aylanu da əjdaha tərəfindən udulan Ayın (Ay tanrısının) dirilməsi üçün özünü qurban verir. Beləliklə, mif və dastanlarda Aylanu və ona bağlı olan obrazların qurban verilməsinin çox qədim astral görüşlərin təsiri ilə yarandığını söyləmək olar. Mifoloji dünyagörüşlərdə də əcdadlarımızın kosmoqoniya ilə bağlı təsəvvürləri öz əksini bu şəkildə tapmış olur.

Göstərilən şifahi və yazılı mətnlərdə ölümə dirəniş vardır. Qədim insanların şüurunda ölüm anlayışı sonradan yarandığından onlar bu düşüncənin bağlı olduğu tanrı, Aldacı, Əzrayıl kimi məbudları çox çətinliklə dərk etmişlər. Bunun bariz nümunəsini Dəli Domrulun şəxsində görürük. O, qəbilə şüurunun yaratdığı, sonradan ölümlə bağlanan məbudu olmuşdur, onun qəbilənin dini kahini kimi ilkin dövrlərdə rol oynadığı aydın görünür. Biz bunun belə

olduğunu qədim dil faktlarında da görürük. Dəli Domrul boyunun da qədimliyində prototürk dilinin oynadığı rol, qədim dil vahidlərinin, arxaik dil materialının boyun strukturunda həlledici rol aydın görünür.

Dilin ilahi mənşəli olduğunu Süleyman peyğəmbərin quşların dilini, Həzrət İbrahimin oğlu İshaq peyğəmbərin ağacların dilini bilmələri də təsdiq edir. Dilin ilahi mənşəli olduğunu dillərin Allah tərəfindən qəbilələrə, tayfalara ünsiyyət vasitəsi kimi göndərilməsi haqqındakı rəvayətlər də sübut edir.

Ağacın, quşun dilini bilmək ilahi keyfiyyətdir və peyğəmbərlərə xasdır. Həyata gəlmə, doğulma, dilin verilməsi, səsin ruhla birgə ana bətninə daxil olması, həyatın sonu – səsin və ruhun, o cümlədən dilin də ilahi dərgaha qaytarılması özü bir dövretmə prosesidir.

Tanrının, peyğəmbərlərin yer üzünə göndərilməsi də Yerin dövr etməsini nizamlamağa xidmət edir. Çünki dini təsəvvürlərdə günahların artması Qiyamətin yaxınlaşmasına səbəb olur. Musanın əjdahanı öldürməsi ilahi bir tapşırıqdır. Çünki əjdahanın totem olmasına inanmayan insan ona artıq şər qüvvə kimi baxır. Dini təfəkkürün yenilənməsi nəticəsində Əzrayıl – Şeytan inancları bir mələyin iki üzü kimi fərqlənməyə başlayır. Yəhudi rəvayətlərində və çoxallahlılıq dövründə müsbətin mənfiyə çevrilməsi ilə bağlı olaraq Estanın səs dəyişməsi yolu ilə mələk adının məzmunu da dəyişir. Estan – Satan, Əzazil (yəhudi dilində Allahın Əzizi) – Əzrayıl sözləri buna misaldır. Hətta Nəsimi yaradıcılığında da Əzazil adı Şeytanın qədim adı kimi (Azazel) işlənir. Yəqin ki, qədim türk dilində də Domrul adı şər mələk məzmununu ifadə etmiş (Qara Humayı yadımıza salaq), sonra Əzrayılın (ölüm mələyinin) funksiyasını daşıyan yumuşcu oğlan olmuş, ölüm isə Domrul adının ekvivalentinə çevrilmişdir (ölüm, öləng sözlərində də həyata yeni münasibət, post ölüm düşüncəsi yaşayır). Dəli Domrul da İbrahim peyğəmbər, Musa peyğəmbər və digərləri kimi ölümə müqavimət göstərərək tarixi-mifoloji obraz kimi həyatın şirin olduğunu qəbul edir. Baxmayaraq ki, o, ölümsüz mələk idi, amma ölümün canlı olduğunu dərk etmir. Bununla da qədim dastançı bir ölüm mələyi kimi Dəli Domrulun ölümsüzlüyünə işarə edir. Yunan mifologiyasında Tantal ölümsüzlük nektarı içir və çox yaşayır. Bilqamısdan fərqli olaraq, Domrul isə bu dünyaya əbədi olaraq gəlib, ona görə də etdiyi günaha görə cəzalandırılmaq əvəzinə, simvolik 140 il ömür (ölümsüzlük) verilir.

Musa peyğəmbərin canının Allah tərəfindən alınması motivinə uyğun olaraq Dəli Domrulun da canının bu boyun ən qədim variantında arxaik mifoloji türk tanrısı tərəfindən alınmasının arzu edilməsi diqqət çəkəndir. Epos təfəkkürünə uyğun olaraq ölüm mələyinin canının islamdakı Əzrayıl tərəfindən alınması Dəli Domrulun mifoloji şüuruna görə yolverilməzdir. Epos

düşüncəsindən fərqli olaraq, qədim rəvayətlərdə olduğu kimi, türk mifoloji düşüncəsində də ölüm mələyinin adı çəkilmir, Aldacı ad deyil, onun xarakterinə işarə edir, buna görə də ölüm mələyinə konkret ad verilmir və o, daha çox Qara İlan adı ilə xatırlanır. Bu, qədim türklərin ölümsüzlük haqqındakı mifik təsəvvürlərindən irəli gəlir. Sonradan bu təsəvvür ölümün haqq olması düşüncəsinə transformasiya olunur.

"Bilqamıs" dastanındakı "əcəl suları" anlayışı (sonradan yunan mifologiyasına keçmişdir, Xaronun əcəl sularında qayıqla ölü ruhunu aparması), türk mifologiyasında "əcəl suyu" ölümlə bağlı olan "Şahmaranın ayaq suyu" ilə əvəz olunur (mətn məndədir). Nağılda Şahmaran öz ayaq suyunun ona düşmən olan rəmmallara verilməsini Camısəfdən xahiş edir. Qədim totemlər də ölümsüz düşünülmüşdür, amma onların qəhrəmanlar tərəfindən öldürülməsi bu ölümsüzlüyə qarşı çıxmadır. Bəs Məlikməmməd? O, əgər əjdahadırsa, niyə ölümsüzlüyə xidmət edir? Çünki o, dövr edən üçləmə prosesindən keçərək mifoloji ölüb-dirilmə tanrısının həm də antropomorflaşmış şəklidir. Yəni o, totem əjdahadan mifoloji tanrıya çevrilir, sonra isə yenidən qəhrəmana transformasiya olunur (*Ölüm canlı obraz kimi həm də ölüm prosesinin icraçısı olan ilana çevrilə bilir. Məlikməmməd də mifoloji şüurda əjdaha mənşəli olduğuna görə bu prosesdən keçir, ölüb-dirilmə tanrısının antropomorfuna çevrilir.* Bu, qədim türk mifoloji şüurunda Ayın və Əjdahanın "ölməsi və dirilməsi" ilə bağlıdır). Türk mifologiyasında olduğu kimi, islam düşüncəsində və Quranda ölümü icra edənin adı ümumi şəkildə "mələkül-mövt" adı ilə verilmiş, sonradan Əzrayıl adı ilə təsbit olunmuşdur (Quran. Əraf surəsi, 7, 37-ci ayələr, Səcdə surəsi, 32/11, Ənam surəsi, 6/61). Bu cəhəti qeyd edən S.Şıxıyeva Dəli Domrul boyunun X əsrdən sonra yenidən işləndiyini, yenidən qələmə alındığını yazır (Şıxıyeva. 2011: 247). Dəli Domrulun mifoloji çağın qədim türk tanrısı panteonunda və türk mifologiyasında adsız ölüm mələyi olması da, həqiqi ölüm qarşısında heyrətə gəlməsi də onun öz qəbiləsinin (boyunun) ölüm mələyi olmasına bağlıdır (Qiyamət günündə 4 mələyin ölməsi barədə Quranda qeyd edilir. Türk Qiyaməti günündə də ölüm mələyinin ölümünün labüd olduğunu və yeni tarixi dönəmdə diriliсəyini düşünürük. Bu səbəbdən Məlikməmmədi də ölüb-dirilən mələyin antropomorfu kimi qəbul etmək olar). Dəli Domrulun ölüm mələyi olmasını özünün quru çayın üzərində inşa etdiyi körpüsündən (o dünya bu dünyanın əksi olduğu üçün bizim dünyanın axar çay üzərində salınan körpüsü mifoloji şüurda o dünyanın quru (susuz) çayı üzərində tikilən körpü ilə əvəz olunur) keçənlərdən 33 aqça alması (33 ədədi – o dünyanın simvoludur) da təsdiq edir. Əgər bu belədirsə,

deməli, Dəli Domrul ölüləri o dünyaya müşayiət etməli, yumuşcu oğlan vəzifəsini icra etməlidir.

Türk mifologiyasında Əzrayılın funksiyasının Aldacı tərəfindən yerinə yetirildiyini görürük. Epos düşüncəsində Dəli Domrulun qarşılaşdığı ölüm mələyi də Aldacıdır. Yenə epos düşüncəsinə uyğun olaraq, ola bilər ki, *Domrulun xatununun da adı ilahə Aylanunun adına uyğundur.* V.Y.Butanayev yazır ki, Sayan-Altay türkləri yeni doğulan körpələrə ölməsin deyə Aylan adı qoyurdular (library.tersu.uz). Qırğızlarda isə ona Aylan xan adı vermişlər. Qədim altaylılar zamanın hərəkətini Aylanu adı ilə ifadə etmişlər. Aylanu dövr etmə, çevrilmə deməkdir (Алтай – Орус sözlük, 2018). "Ağ Mergen" qazax dastanında ailədə 11 adam, o cümlədən gənc Aylan, onun beş yaşlı qardaşı və anası yaşayır. İndi də qazaxlar doğulan körpəyə Aylana adı verirlər.

Qədim türklər Ayın çıxıb-batmasını ölüb-dirilmə kimi başa düşmüşlər. Can əvəzinə can motivi də Aylanu adlanır. Dəli Domrul boyuna uyğun gələn bütün miflərdə seçilən qurbanın adı verilir. "Ər-Töştük" dastanında Jesmen Bay onu öldürmək istəyən Kafir oğlu Yel Moğuşa öz canı əvəzinə oğlu Ər-Töştükün canını təklif edir.

Dəli Domrulun arxaik adı Altay və türk dillərində Tunqruldur. Dəli Domrul adında *m* səsinin *n* kimi bəzi bölgələrdə tələffüzü deməyə imkan verir ki, Dumrul adı Dunrul/Tunqrul kimi tələffüz edilə bilər. Bu adın Toğrul quşu ilə də bağlılığı vardır. Bu adın antropomorflaşma xüsusiyyəti vardır. Hammerə istinad edən Bahəddin Ögəl yazır ki, Osmanlı dövlətinin ilk bəylərindən Ər Toğrul qazi, rəvayətə görə, yuxusunda uçan bir göyərçin görür və oyanan kimi yuxusunu yozdurur. Yuxunu yozanlar ona hökmdar olacağını söyləyirlər. Elə Ər Toğrulun adı da bu doğan növünün adı idi (Bahəddin Ögəl, 2006: 587 – 588). Cəlal Bəydili yazır ki, ilk səlcuq bəylərindən Toğrul, Çağn, Beykunun adları yırtıcı heyvan və quş adları daşıyırdı (Bəydili, C., 2003: 23). Qədim türk qəhrəmanlarının, hətta tanrı səviyyəsindən enmiş igidlərin də quş adı daşıması məlumdur. Yenə C. Bəydili yazır ki, müsəlmanlığı qəbul etmiş Oğuzlarda iki ad olurdu. Biri yeni müsəlman adı idi, digəri isə boy və soy mənsubluğunu göstərirdi (Bəydili. 2003: 23). O, Aldacı sözünü kumandinlərdə ölüm mələyinə verilən ad kimi qeyd edir (Bəydili. 2003: 41). Onu quş kimi təsəvvür etsək, nağıllarımızdakı ("Tələtin nağılı" və s.) ruh daşıyan quşlarla onun eyni funksiyaya malik olduğunu düşünə bilərik. Ölüm qədim zamanlarda həyatın bir sonu olaraq başa düşülməmişdir. Buna görə də ölüm pis ruhların təsiri ilə qavranılır, əski türklərdə ibtidai dinlərin təsiri ilə "ölüm mələyi"nə inanc yaranır. "Kitabi-Dədə Qorqud"da da ölüm mələyi kişi cinsində yumuşcu oğlan adı ilə xatırlanır.

Türk xalqlarının dilləri bir-birinin leksik yaradıcılığının zənginləşməsin də rol oynamışlar. Düşünürəm ki, yumuşcu sözü də türk xalqlarının ümumişlək leksikasına aid olmuşdur. Aldacı haqqında Dəniz Qaraqurt yazır ki, o, türk və Altay mifologiyasında ölüm mələyidir, Erlikin insanların canını alması üçün göndərdiyi və ən çox inandığı şər bir ruhdur. Ona səfərdə yoldaşlıq edən ruhun (ti) hərəkətsiz hissəsi sur adlanır (Karakurt. 2012: 68).

Dəli Domrulla xatununun ilişgilərinə matriarxat cəmiyyətin prizmasından da baxmağa çalışaq. Bu zamanda xatunun praobrazının kim olduğu, onun öz həyati prinsipləri, Domrulla, ya da onun praobrazı ilə münasibətləri hansı səviyyədə olmuşdur? Xatunun praobrazı boydan gördüyümüz can əvəzinə can motivini funksiyalaşdırır, yoxsa bu motiv daha çox Domrula, onun keçmişinə aid olan problemdir? Hər halda, bu məsələ ilə bağlı tarix və epos heç bir məlumat vermir.

Əgər xatunu və Dəli Domrulu mifoloji şüurun yaratdığı obrazlar hesab etsək, matriarxat cəmiyyətdə hər ikisinin özlərinə məxsus qadın və kişi mövqeləri və hüquqları olmalıdır. Domrul tanrı səviyyəsindən endiyi üçün onun hüququnu cəmiyyət qəbul edə bilmir. Onun kişi hüququ qorunmur. Dastanda xatun ərinə sadiq həyat yoldaşıdır. Amma onun eposdan əvvəl yaşadığı matriarxat cəmiyyətdə qadın hüququ aparıcı rol oynayır. Eposda xatuna məxsus olan can əvəzinə can motivi işlənsə də, matriarxat cəmiyyətdə az başa düşülür, fərdin canı totem canına bağlı olduğu üçün hamı öz canını qoruyur, ya da matriarxatlığın sonunda, ölümün dərk olunduğu vaxtda şərti olaraq Dumuzi kimi Dəli Domrulun da qədim ölüm mələyinin iradəsinə görə ölməyə məhkum edilən xatununun canı əvəzinə öz canını qurban verməsini düşünə bilərik. Bu cəmiyyətin qaydaları qadına kişi üzərində hökmran olmağı öyrədir. Epos düşüncəsi ilə baxsaq, Dəli Domrulun ata-anası da bu cəmiyyətin üzvləridir. Amma matriarxat cəmiyyətdə can ümumi şəkildə hamının hesab olunur. Onlar Dəli Domrula niyə canlarını vermirlər?

Dəli Domrul özü can alan mələk olub mifoloji qəhrəman səviyyəsinə enəndən sonra onun can almaq funksiyası insana məxsus olan can əvəzinə can istəmə (öz canını girov qoymaq) ilə əvəz olunmuşdur. Onun mələk səviyyəsində olduğu zamanın xatunu isə can əvəzinə can motivinin daşıyıcısına çevrilmişdir. O da ilahi mənşəlidir. Əgər ata-anası Domrula canlarını versəydilər, o, mələk kimi qala bilərdi. Lakin bu baş verməyəndə mifoloji düşüncədə Domrula olan inam itir, inisiasiya prosesi də baş vermir və Domrul ölüb-dirilə bilmir, funksiyasını itirib qəhrəmana dönür. Aldacı (Əzrayıl) ilə toqquşması isə “səlahiyyətini” itirmiş mələyin ümidsiz dəli statusuna yiyələnməsi və məğlub olması deməkdir.

Dəli Domrul Duxanın (öküzün) can bəxş etdiyi, yaratdığıdır. Ona görə də Domrul öz yaradıcısından ona təkrar can (ruh) verməsini istəyir. Duxa niyə can vermək istəmir? Çünki onun təmsilçisi olan ata boyda patriarxat cəmiyyətin üzvü kimi yaşayır. Əgər matriarxatlıq dövrü olsaydı, canvermə baş verə bilərdi. Amma patriarxatlıq dövründə inanc olaraq can xüsusiləşir, şəxsin özünə aid olur, buna baxmayaraq, bədəndən kənarda düşünülür. Matriarxat dövründə isə can ümumidir. Deməli, totem canının hamıya məxsus olması mifoloji düşüncədə can əvəzinə can istəməni asanlaşdırır, patriarxatlıq dövründə isə canın kənarda düşünülməsi can əvəzinə can verməni mümkünsüz edir, onu ancaq öldürüb canına yiyələnmək olar. Məlikməmməd də divi öldürür, nağılda onun canına yiyələnmək hiss olunmasa da, aşağı dünyaya ölü kimi daxil olduğundan divi öldürdükdən sonra onun canını mənimsəyib dirilir. Bu isə onun aşağı dünyadan bu dünyaya qayıtmasında rol oynayır, div isə öz canının qoruyucusuna çevrilə bilmir. Eyni proses Təpəgöz boyunda da baş verir.

Əcdad – mələk – qəhrəman səviyyələrindən keçən Dəli Domrul can əvəzinə can motivinin köməyi sonucunda əcdad – insan, mələk – insan düsturları ilə qarşı-qarşıya qalır. Onun mələk ilə əlaqəsi zoonimik düşüncədə mümkündür, amma tarixi düşüncədə bu bağlılıq pozulmuşdur. Bu da onun öz ata-anasından can almasını mümkünsüzləşdirir. Burada “ölümlə barışmamaq” düşüncəsi də vardır. “Ölümlə barışmamaq” düşüncəsi mifoloji şüurda ölümdənqaçma motivini formalaşdırır. Ona görə də bütün mifoloji qəhrəmanlar mifoloji şüurda öz həyatlarını qorumaq üçün can əvəzinə öz canını girov qoymağa məcburdurlar. Amma tarixi şüurda Dəli Domrulun öz canını girov qoymaq məsələsi yoxdur, çünki boyda Domrulun (Təpəgözün də) birbaşa ölməsi tələb olunur.

Başqasının əvəzinə ölmə motivi monqol qəhrəmanı Ödegeyin yerinə ölən Tuluy (tulu quş) və Humayun üçün ölən Babur örnəklərində də qarşımıza çıxır (Bəydili. 2003: 236). Tulu quş da can əvəzinə can motivində iştirak edir. Mifə görə Dəli Domrul/Tunqrul/Dunrul üçün ölən də tulu quşdur. “Ağ quş” nağılında da Ağ quş sevdiyi Şirzadı təhlükələrdən xilas edir, sonda ona həyat verib özü ölür (Azərbaycan nağılları. 2005: 102-110). Şirzad şir südü ilə böyümüşdür. Buna görə də onu Basatla eyniləşdirmək olar. Şir hər ikisinin tapındığı heyvandır. Amma Şirzadın onqonu Ağ quşdur. Domrulun onqonu isə tulu quşdur. Onqon öz canını ona sitayiş edənlərə qurban verməlidir. Ağ quş da canını Şirzada qurban verir. Onqonun adı ilə oğulların adlanması Tulu oğlu Domrul, Deqelek oğlu Dumrul/Tunrul/Tungrul/Tuğrul kimi paralellərdə hələ öz izahını tapmamışdır (Tulu oğlu Tulu, Deqelek oğlu Deqelek). Serikbol Kondıbay da tulu quşun digər adının deqelek olduğunu qeyd edir (Серикбол.

2008: 346-350). Domrul adı ilə Tunqrul/Tuğrul – tulu arasında da yaxınlıq görünür. Aldacı sözündə də aldatmaq feilinin məzmunu vardır. “Ağ quş” nağılında da Ağ quş onqon kimi kömək etdiyi, himayə etdiyi adama ərə getmək arzusunda olub, lakin oğlan vəfasız olduğu üçün yenə də canını fəda edir. Əgər Şirzad vəfasız olmasaydı, Ağ quş ona ərə gedərdi. Deməli, Ağ quş (Tulu quş) Şirzaddan fərqli olaraq vəfalıdır. Ona görə də ona öz canını qurban verir. Şirzad vəfalı olsa da, olmasa da, Ağ quş canını ona qurban verməlidir, çünki o, hami olaraq qoruyucu funksiyasını daşıyır. Ağ quşun sonda dediyi söz buna misaldır: “Mənim alnıma yazılmışdı ki, mən gərək bir adama kömək edəm. Əgər o adam mərd çıxsa, ona gedəm, əgər namərd çıxsa, öləm. İndi mənim vaxtım tamamdı. Bunu deyib Ağ quş dönüb daş oldu” (Azərbaycan nağılları. 2005: 110). Bu nağılda can əvəzinə can vermə - Aylanu motivi süjetin əsasında dayanır. Ağ quş isə Dəli Domrulun xatununun nağıl tipidir. Motivin şərtlərinə uyğun olaraq Ağ quş sevdiyini ölümdən qurtarır, özü isə daşa dönür.

Mifdə də qədim süjetə görə, Dəli Domrulun xatununun praobrazı ölür, tulu quş da ölür. Bəs boyda xatunun canı niyə bağışlanır? Can əvəzinə can motivinin şərtinə görə xatun ölməli idi. Bu boyun qədim variantında da Dəli Domrulun xatununun ölməsini düşünə bilərik. Burada islamın təsiri vardır. Rəhm Allahın sifətlərindən ən ilkinidir, buna görə də rəhmli Allah xatunun və Domrulun canını bağışlayır, üstəlik 140 il də ömür verir.

Bəs niyə eposda Domrul Duxa (öküz) oğlu kimi təqdim olunur? Onqon dünyagörüşünə görə Domrul adı onun quş nəslinə bağlanır və onqon adı olması ilə bərpa oluna bilir. Matriarxat dövrü olsaydı, Tulu oğlu Tunqrul olardı, patriarxat dövründə Duxanın oğlu kimi təqdim olunmalıdır.

Burada yada salaq ki, Oğuzun da işarəsi quşdur (öküz-quş/duka/deqe-lek). Yenə deqelek sözü ilə duka/düge sözünü qarşılaşdırmalı olacağıq. Düyənin, dügenin əsasında deqe/düge apelyativi hiss olunur. *-lək/lek* şəkilçisi isə sözə artırılaraq quş sözünü ifadə etməlidir. Bu şəkilçi leylək sözündə hifz olunur. *Ley* qırğı mənasındadır, -lək şəkilçisi artırılandan sonra yeni quş adı yaranır. Leylək, ödlək, tülək, öləng apelyativlərində *-lək* şəkilçisi sözlərin iç məzmununda quş mənasının yaradılmasında iştirak edir. Serikbol Kondıbay da yazır ki, "Degelek" sözü "dege" (deg) və "lek" (elek) sözlərindən ibarətdir. “Buradakı "elek" (uleq/ilanq) sözü ilanla əlaqəli bir anlayış (ilan-quş) ifadə edir. "Deg" (dege) sözü, şogım (sağır nun) işarəsindəki kəsişmə nöqtəsinin adını ifadə edən -tag variantı praforması -tang prototürk praformasından əmələ gəlir (təñir - tengri sözünün "taqalan", "tagimasad" (skiflərdə müqəddəs quş), "aydahar" sözləri ilə eyni kökdən olduğu ortaya çıxır” (Кондыбай. 2008: 349). Müəllif demək istəyir ki, dege+lek (deg) sözü öküz tanrını və əjdahanı ifadə

edir. Buradan da tulu ilə deqelek quş adının əjdahaya bağlanmasını görürük. S.Kondıbay tulu sözündə tu/tuğ (can və bayraq) hissəciyinin əjdaha ilə bağlılığını yazır. "İşarənin "oxunması" nəticəsinə istinad edərək, "bayraq" – "can" – "ruh" –"ruhun zoomorfik siması (ilan)" – "ejderha / ilan-əcdad" – "əcdad-quş" – "həyat ağacı" və s. semantik zəncirinin mövcudluğunu təsdiq edə bilərik" (Серикбол. 2008: 311). Qədim türk bayraqlarında da əjdaha simvolu vardır.

Bütün bu faktlar əjdaha toteminin arxaik köklərə malik olduğunu göstərir. Bu deyilənlərdən çıxış edərək Domrul obrazının da antik dövrlərdə formalaşdığı qənaətindəyik. Həm Aylanu motivi, həm də Dəli Domrulla bağlı can əvəzinə can istəmə və can əvəzinə can vermə motivləri Domrulun və onun xatununun mifoloji köklərdən qaynaqlandığını bir daha təsdiq edir. Həmin motivlərin də mifoloji zamanda yaranması, dastan içində və boyun strukturunda aparıcı mövqeyə malik olması, Aylanunun əjdaha, Domrulun quş semantikasını daşıması və onların mifoloji düşüncədə sabitləşməsi, onların haqqında yaranan miflər Dəli Domrul boyunun formalaşmasında mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT


Azərbaycan nağılları. 5 cilddə. 2-ci cild. Tərtib edəni: Məmmədhüseyn Təhmasib. Bakı, Şərq-Qərb, 2005.

Azərbaycan nağılları. 5 cilddə. 5-ci cild. Tərtib edən: Nurəddin Seyidov. Bakı, Şərq-Qərb, 2005

Алтай – Орус sözlük. Горно-Алтайск, 2018.

Bahəddin, Ö. Türk mifologiyası. I cild. Bakı, MBM, 2006.

Bəydili, C. Türk mifoloji sözlüyü. Bakı, Elm, 2003.

Eyvazov P. Prof. Dr. Çoban Bəkirzadənin dilçilik araşdırmalarında söz yaradıcılığı məsələləri/ Uluslararası türk ləhcə araşdırmaları dərgisi (Türklad). 3.cild, 1.sayı. 2019, s.144 – 159.

Demirçi G. Antik Urfada Sin kültü. Milel ve Nihal, 2 (2), 2005.

Karakurt D. Türk Söylence Sözlüğü (Açıklamalı Ansiklopedik Mitoloji Sözlüğü). Deniz Karakurt. e-kitap. – Ankara, 2012.

Kitabi – Dədə Qorqud. Bakı, Gənclik, 1978.

Quran. Əraf Surəsi, 7, 37, Səcdə Surəsi, 32/11, Ənam) Surə 6/61. Bakü, 2004.

İzahlı saz-söz lüğəti. Bakı, 2015.

Muharrem, K. Türk Halk Edebiyatında Deli Dumrul ve Dünya Kültüründeki Benzerleri. Folklor/Edebiyat, 2004/1. Cilt X. Sayı XXXVII: 237.

Rzasoy S. Oğuz mifi “Dədə Qorqud Kitabı”nın bərpasının ana qaynaqlarından biri kimi. "Dədə Qorqud" toplusu, № 4, 2004.

Şıxıyeva S. Dəli Dəmrul boyundakı bir motivin analoqları. Motif Akademi Halkbilimi Dergisi, 1 / 2011.

Серикбол, К. Мифология предказахов. Книга третья. Часть вторая. М.: Алматы: СаГа, 2008.